# Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş konsert proqramı keçirilib

**Lənkəran Dövlət Dram Teatrında Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 saylı Uşaq Müsiqi Məktəbinin müəllim və şagird kollektivinın təşkilatçılığı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş bədii-poetik konsert proqramı keçirilib.**



Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, Milli Məclisin deputatı Fariz İsmayılzadə və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bədii-poetik konsert proqramında Məhəmməd Füzulinin qəzəlləri səsləndirilib, muğamlar ifa olunub və ədəbi kompozisiyalar nümayiş etdirilib.

*"Azərbaycan"*

Azərbaycan.-2025.- 16 yanvar (№ 9).- S.11.